# Azərbaycan Prezidentinin daha bir humanist addımı

## *Son otuz ilin ən əhatəli amnistiya aktı belə dəyərləndirilir*

**Ölkəmiz iqtisadi cəhətdən gücləndikcə və beynəlxalq aləmlə əməkdaşlığımız genişləndikcə əsas insan hüquq və azadlıqlarının qorunması və cəmiyyətin daha da demokratikləşdirilməsi istiqamətində də mühüm addımlar atılır. Bu gün artıq dünyada hamı etiraf edir ki, Azərbaycan Respublikası insan hüquqlarının qorunmasına dair humanist təşəbbüslərə ən tez cavab verən və bu istiqamətdə nəzərdə tutulan layihələri daha çevik şəkildə icra edən ölkələrdən biridir.**

Dünya ekspertləri etiraf edirlər ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə insan hüquqlarının qorunmasına xüsusi önəm verilir, bu sahədə mütərəqqi islahatlar aparılır, o cümlədən cəza-icra siyasəti humanistləşdirilir. Dövlət başçısı tərəfindən və Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə qəbul olunan əfv və amnistiya aktları, xüsusən, COVID-19 pandemiyası dövründə yaşı 65-dən yuxarı olan 176 məhkumun əfv edilməsi dövlətimizin humanist siyasətinin əyani təzahürlərindəndir.

Eyni zamanda, azadlıqdan məhrumetmə cəzasının tətbiqinin azaldılması və alternativ cəzalara üstünlük verilməsi məqsədilə ölkə Prezidentinin cəza siyasətinin humanistləşdirilməsinə dair 2017-ci il 10 fevral tarixli sərəncamı ilə cinayət qanunvericiliyinə əsaslı dəyişikliklər edilməsi, bir çox əməllərin dekriminallaşdırılması Azərbaycan dövlətinin humanizm prinsiplərinə və demokratik dəyərlərə sadiqliyinin daha bir nümunəsi idi.

Bu günlərdə isə dövlət başçımız “8 Noyabr – Zəfər Günü münasibəti ilə Amnistiya Aktının elan edilməsi haqqında” Milli Məclisə qanunvericilik təşəbbüsü ilə müraciət etmişdir. Bu məsələ parlamentin iclasında müzakirə edilərkən bildirilib ki, hüquqi və demokratik dövlətin əsas təməllərindən biri olan insan hüquqlarının və azadlıqlarının müdafiəsi, ölkə həyatında mərhəmət və humanizm prinsiplərinin bərqərar edilməsi Azərbaycan Prezidentinin həyata keçirdiyi dövlət siyasətinin ən mühüm istiqamətlərindən birini təşkil edir. Onun rəhbərliyi altında səmərəli fəaliyyəti ilə böyük nüfuz qazanmış əfvetmə və bağışlama institutu şəxsiyyətə inam və hörmət, insanpərvərlik ideyalarının cəmiyyətdə geniş yayılmasına kömək göstərir.

Milli Məclisin Sədri vurğulayıb ki, 2003-cü ildən etibarən dövlət başçısının təşəbbüsü ilə çoxsaylı amnistiya aktları qəbul olunub və bu aktlar on minlərlə insana şamil edilib: “Üç gün bundan əvvəl isə Prezident İlham Əliyev Zəfər Günü münasibətilə amnistiya elan edilməsi barədə təşəbbüs irəli sürüb və müvafiq qərar layihəsini Milli Məclisə təqdim edib. Layihə Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsində geniş müzakirə olunub.

Xatırladaq ki, ulu öndər Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıtdıqdan sonra Azərbaycanda həyata keçirdiyi humanizm siyasətinin vacib istiqamətlərindən biri cinayət törətmiş, lakin cinayətini etiraf etmiş və peşman olmuş şəxslərə qarşı humanizm, onların əfv edilməsi, bağışlanması olub. Məhz bu siyasətin davamı nəticəsində 1995-2021-ci illər ərzində əvvəlcə Heydər Əliyev, sonra isə İlham Əliyev tərəfindən 67 əfv fərmanı və sərəncamı qəbul edilib.

Bildirilir ki, həmin dövr ərzində parlamentdə 11 amnistiya qərarı qəbul olunub. Həmin amnistiya qərarlarından sonuncuları Heydər Əliyev Fondunun prezidenti, Mehriban xanım Əliyeva deputat fəaliyyəti dövründə təqdim edib. Nəticədə Mehriban xanımın deputat olduğu illərdə bütövlükdə 117 min şəxsə amnistiya qərarı tətbiq olunub.

Dövlət başçısının tapşırığı əsasında Prezident Administrasiyasında hazırlanan layihənin preambulasında 8 noyabr 2020-ci il tarixdə Şuşa şəhərinin işğaldan azad olunmasının Azərbaycan xalqı üçün müstəsna əhəmiyyəti vurğulanıb və məhz Zəfər Günü ərəfəsində Vətən müharibəsinin birinci ildönümü ilə bağlı amnistiya təşəbbüsünün zərurəti əsaslandırılıb. Sənəddə amnistiya tətbiq edilən şəxslərin dairəsi, amnistiyanın tətbiqinə məhdudiyyətlər, amnistiya aktının hüquqi qüvvəsi və amnistiyanın tətbiqi qaydaları öz əksini tapıb.

Milli Məclisin müvafiq komitəsində və parlamentin iclasında geniş müzakirə edildikdən sonra layihəni təsdiqləyən qərar qəbul edilmişdir. Bildirilir ki, bu qərar qəbul olunduğu gündən amnistiya qüvvəyə minir və əlaqədar orqanlar tərəfindən 4 ay müddətində amnistiyanın tətbiqi təmin edilməlidir. Xatırladaq ki, bu indiyə qədər qəbul olunmuş amnistiyalar sırasında öz əhatə dairəsinə görə ən geniş və əhatəli qərardır.

Bu amnistiya aktının parlamentin müstəqillik dövründə qəbul etdiyi 11 anoloji aktın əhatə baxımından hamısından böyük olmasının da xüsusi mənası vardır. Çünki söhbət bu amnistiya aktının 8 Noyabr – Zəfər Günü münasibətiylə hazırlanmasından gedir. İkinci Qarabağ müharibəsi də, həmin 44 günlük savaşdakı şanlı Qələbəmiz də tariximizdə heç zaman unudulmayacaq.

Ekspertlər yazırlar ki, xalqımızın çoxəsrlik tarixində buna bənzər Qələbə olmamışdır. Bütün xalq bu Zəfəri qazanmaq üçün birləşmişdi. Hamı Ordumuzun arxasında idi. Ordumuz isə Ali Baş Komandanın əmrlərini ləyaqətlə yerinə yetirdi. Xalq–iqtidar birliyi öz dözünü qətiyyətlə dedi və biz qəhrəmanlıq, fədakarlıq göstərərək, qan tökərək, şəhidlər verərək tarixi ədaləti bərpa etdik, düşməni öz torpağımızdan qovduq, ona “dərs” verdik. Dövlət başçımızın dediyi kimi, bundan sonra Azərbaycan xalqı əbədi olaraq qalib xalq kimi yaşayacaq.

***İttifaq MİRZƏBƏYLİ,***
***“Xalq qəzeti”***

Xalq qəzeti.- 2021.- 7 noyabr.- S.8.